# Bu Zəfər Azərbaycanın hərtərəfli hazırlığının gözlənilən nəticəsi idi

***Otuz il regionun sosial-iqtisadi inkişafına mane olan, qonşular arasındakı əməkdaşlıq və tərəfdaşlıq məsələlərinə əngəl törədən, Azərbaycan ərazilərinin 20 faizinin əsarət altında saxlanılmasına səbəb olan və nəhayət, tarixin arxivinə göndərilən Dağlıq Qarabağ münaqişəsi artıq yoxdur. Hətta o adda inzibati-ərazi vahidi də mövcud deyil. İndi həmin ərazilərdə Qarabağ və Şərqi Zəngəzur adlı iqtisadi rayonlar var. Bu otuz illik "qozbel" reallıqların Cənubi Qafqazın müasir reallıqlarına çevrilməsini müasir dünyanın ən nüfuzlu siyasətçilərindən olan Prezidentimiz, gündən-günə qüdrətlənən Azərbaycan dövləti, səsi dünyanın bütün hərbi mərkəzlərindən gələn şanlı ordumuz və istənilən məqamda yumruq kimi birləşməyi bacaran qəhrəman xalqımız təmin etdi.***

Biz artıq Vətən torpaqlarını düşmən tapdağından təmizləmək üçün başladığımız azadlıq mübarizəmizin bir illiyini qeyd etdik. İndi isə şanlı Qələbənin və işğalçı ölkənin rəzilcəsinə imza atdığı kapitulyasiya sənədinin elan edildiyi günün, saatların ildönümü ərəfəsindəyik. Yəni son iki əsrimizin ən möhtəşəm çağlarını yaşayırıq. Bu xoş günlərimiz haqqında yazan, danışan, fikir bildirən ekspertlərin böyük əksəriyyəti qətiyyətlə deyirlər ki, qələbənin təməlini ulu öndər Heydər Əliyev hələ 2003-cü il oktyabrın 1-də xalqa məlum müraciəti ilə qoymuşdu: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bəli, İlham Əliyev, sözün həqiqi mənasında, ulu öndərin başa çatdıra bilmədiyi məsələni möhtəşəm bir zəfərlə başa çatdırdı. Ölkəmizdə və dünyada hamıya məlumdur ki, böyük xilaskar Heydər Əliyevin başa çatdıra bilmədiyi yeganə məsələ Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olmaq idi.

Onu da hamı bilir ki, ümummilli lider bu istiqamətdə titanik fəaliyyət göstərmişdi. Fikrimizi əsaslandırmaq üçün bəzi məqamlara diqqət yönəldək.

Heydər Əliyev 1993-cü ildən 2001-ci ilədək 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485 görüş keçirmişdi. Bu görüşlərin hamısında Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. Konkret rəqəmlərlə ifadə etsək, Heydər Əliyev ABŞ-ın Prezidenti, xarici işlər naziri ilə bu məsələni 18, Fransa rəhbərləri ilə 16, Rusiya ilə 23, Türkiyə rəhbərləri ilə 78 dəfə müzakirə etmişdir. BMT-nin baş katibləri ilə onlarca görüş olmuşdur, NATO-nun, Müstəqil Dövlətlər Birliyinin zirvə görüşlərində, İslam Konfransı Təşkilatının iki, İqtisadi Əməkdaşlıq Təşkilatının dörd zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərində hər dəfə Heydər Əliyev Ermənistan –Azərbaycan münaqişəsini gündəliyə çıxarmışdır.

1999-cu ilin aprelindən başlayaraq, münaqişənin nizama salınması istiqamətində yeni bir format yaranmışdı. Həmin format Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqunu ehtiva edirdi. Ona görə də Heydər Əliyevin Ermənistan prezidenti Robert Koçaryanla Cenevrədə, Moskvada, İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, Soçidə, respublikamızın sərhədində çoxsaylı görüşləri olmuşdur. Yəni, ümummilli lider ikili standartlarla idarə edilən dünya dövlətlərinə qarşı təkbaşına mübarizə apardığına görə həmin məsələnin həllinə nail ola bilməmişdi.

Prezident İlham Əliyev isə həm özünün siyasi –diplomatik potensialından, həm 18 il ərzində daim inkişaf etdirdiyi dövlətin gücündən, həm xalqın ona olan inam və etimadından, həm də dünyanın əksər güc mərkəzlərini Azərbaycanın dostuna, tərəfdaşına çevirə bilməsindən istifadə edərək məsələnin birdəfəlik həllinə nail oldu.

Münaqişənin tarixinə ekskurs etdiyimizə görə, Prezident İlham Əliyevin 2010-cu il noyabrın 29-da– yeni seçilmiş parlamentin ilk iclasında səsləndirdiyi fikirləri də yada salmaq istəyirəm. Niyə məhz həmin fikirləri? Çünki dövlət başçımız şanlı qələbəmizdən sonrakı bütün nitqlərində və bəyanatlarında məhz bu arqumentləri təkrar-təkrar xatırladır: "Mən bir daha demək istəyirəm ki, Azərbaycan bu prinsipial mövqedən bir addım geri çəkilməyəcəkdir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt müzakirə mövzusu olmayıbdır və olmayacaqdır. Heç vaxt Azərbaycan dövləti onun əzəli torpağı olan Dağlıq Qarabağa müstəqillik verməyəcəkdir. Bu, mümkün deyildir. Qarşı tərəf də bunu bilir".

Əsas məsələ dövlət başçımızın bu fikirlərinin ardınca səsləndirdiyi məntiqdədir: "Ancaq bununla bərabər, başa düşürük ki, məsələni həll etmək üçün biz daha da güclü olmalıyıq. Bizim indiki gücümüz kifayət qədər böyükdür. Amma bütün mənalarda daha da güclü olmalıyıq. Azərbaycanın iqtisadi və siyasi addımları, ordu quruculuğu sahəsində atılmış addımlar bunu göstərir ki, biz hər gün həm iqtisadi, həm hərbi, həm siyasi cəhətdən daha da güclənirik. Bölgədə artan rolumuz, əlbəttə ki, bizə bu məsələnin həlli üçün də imkan verəcəkdir". Biz ötən ilin payızında cənab Prezidentin on il qabaq dediyi "təkanın" şahidi olduq.

Şahidi olduğumuz ən böyük fakt Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Dövlət başçımızın dediyi kimi, bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir. Bu gün bizim Qələbəmiz dünyanın aparıcı ölkələrinin nüfuzlu ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub, öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik.

Bəli, cənab Prezident son 18 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarında deyirdi ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın: "Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".

Müzəffər Ali Baş Komandan bütün bu işləri ardıcıllıqla etdi. Son 18 illik tariximizə nəzər salsaq görərik ki, geridə qalan bütün illərdə qarşıya müxtəlif hədəflər qoyulurdu. Dövlətimiz həmin məqsədlərə çatır və sonra yeni hədəflər müəyyən edilirdi. Beləliklə, Prezidentin uğurlu siyasəti nəticəsində həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin edə bilmişik. Nəticədə Azərbaycan beynəlxalq aləmdə çox böyük nüfuza və hörmətə malik olan dövlətə çevrildi.

Bu sətirləri qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Zəngilanda səsləndirdiyi bəyanatdan seçdiyimiz sitatla tamamlayırıq: "Azərbaycan bölgənin əsl potensialının həyata keçirilməsinə mane olan işğalı şanlı Zəfəri ilə sona çatdırdı, BMT Təhlükəsizlik Şurasının illərdir tətbiq olunmayan qətnamələrini özü həyata keçirdi. Davamlı sülhün təmin olunması və arzu edilən normallaşma istiqamətində irəliləyişin olması üçün şərait bu gün əvvəllər olmadığı qədər əlverişlidir... Gün gələcək Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək. Bu inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla Azərbaycanın bütün qonşuları istifadə edəcəklər. Bir sözlə, bu layihələr kənarlaşdırıcı deyil, əhatəedicidir".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

